“Amerika, həqiqətən, insan hüquqlarının və demokratik dəyərlərin beşiyidir”

Tahir Xudiyev:”Bu ölkədə ümumbəşəri dəyərlərin yüksək səviyyədə qorunması məni valeh etdi”

(Əvvəli səh. 1-də)

Bu baxımdan qəzetimizin təsisçisi və baş redaktoru, “Beynəlxalq Əlillər Cəmiyyəti” İctimai Birliyinin sədri Tahir Xudiyevin bu yaxınlarda rəsmi dəvət əsasında Amerika Birləşmiş Ştatlarına etdiyi səfəri böyük qürur hissi ilə xüsusi qeyd edə bilərik.

Şübhəsiz ki, hər hansı bir xarici ölkəyə səfər etmək insanın elmi dünyagörüşünə, ictimai-siyasi baxışlarına və daxili mənəvi-əxlaqi dünyasına ciddi təsir göstərir, onun yaddaşında silinməz izlər buraxır. Bəs, ABŞ səfəri Tahir Xudiyevə necə təsir bağışlayıb? O, bu ölkədən hansı təəssüratla qayıdıb? Ümumiyyətlə, Tahir müəllim bu səfəri necə qiymətləndirir? Onun səfər təəssüratlarını oxucularımıza təqdim edirik.

- Tahir müəllim, məlum olduğu kimi, Siz bu yaxınlarda ABŞ-da səfərdə olmusunuz. Elə buna görə də ABŞ səfəriniz barədə oxucularımıza məlumat verməyinizi istərdik. ABŞ-a səfəriniz neçə gün çəkdi və hansı məqsədi daşıyırdı? Səfər kimin dəstəyi ilə baş tutmuşdu?

- Məmnuniyyətlə. Bizim bu səfərimiz ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Enn Dersinin təşəbbüsü və ABŞ Konqresinin maliyyə dəstəyi ilə baş tutdu. Yeri gəlmişkən, mən ABŞ səfərimin reallaşmasında göstərdiyi hərtərəfli dəstəyə görə ABŞ-ın ölkəmizdəki səfiri, hamımızın sevimlisi, xeyirxah və qayğıkeş insan, gözəl qadın, təcrübəli diplomat xanım Enn Dersiyə, ABŞ Konqresinə və ümumiyyətlə, bu səfərin baş tutmasında köməkliyi olan digər insanlara öz böyük təşəkkürlərimi bildirirəm. Səmimi etiraf etmək istəyirəm ki, bu, mənim üçün gözlənilməz oldu. ABŞ səfərimiz bu ölkənin səfirliyinin həyata keçirdiyi “Açıq Dünya Proqramı” çərçivəsində reallaşdı. Bizə proqramın iştirakçısı olaraq ABŞ dövləti tərəfindən J-1 vizası (mübadilə proqramının iştirakçıları üçün xüsusi viza növü) verildi. Səfərdə başlıca məqsəd isə ABŞ-ın əlillərlə bağlı qabaqcıl beynəlxalq təcrübəsini mübadilə məqsədilə seminarlarda iştirak etmək idi. Yeri gəlmişkən, mən qəzetimiz vasitəsilə oxucularımıza “Açıq Dünya Proqramı” barədə bir qədər ətraflı məlumat vermək istəyirəm. “Açıq Dünya Proqramı” 1999-cu ildə Rusiya və ABŞ-ın iki mötəbər alimi və ictimai xadimi - akademik Dmitri Sergeyeviç Lixaçov və Konqres Kitabxanasının direktoru Doktor Ceyms Billinqtonun təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən təsis olunmuşdur. “Açıq Dünya Proqramı”nın təşkilat strukturuna gəldikdə isə, onu deyə bilərəm ki, 1999-cu ilin mayında Rusiya Liderlik Proqramının (RLP) pilot proqramı başladılmışdır. 2000 -ci ildə isə xüsusi mərkəzin yaradılması haqqında qərar qəbul edilmişdir. Mərkəz rəsmi olaraq 2001-ci ilin dekabrından fəaliyyət göstərir. “Açıq Dünya Proqramı”nın məqsədi yeni nəsil liderləri amerikalı həmkarları ilə görüşdürmək, onlar üçün vacib olan mövzular üzrə ideya və təcrübə mübadiləsini təşkil edərək, ABŞ və iştirakçı dövlətlərin arasında qarşılıqlı anlaşmanı inkişaf etdirməkdir.

Təsis olunduğu ildən başlayaraq “Açıq Dünya Proqramı” Rusiya, Ukrayna, Litva və Özbəkistanın 11 mindən çox bu günün və gələcəyin liderləri üçün öz amerikalı həmkarları ilə birlikdə ABŞ-da yaşamaq və işləmək təcrübəsini reallaşdırmaq imkanı vermişdir. 2007-ci ildə “Açıq Dünya Proqramı”nı genişləndirərək 5 yeni ölkənin - Azərbaycan, Gürcüstan, Qırğızıstan, Moldova və Tacikistanın yeni nəsil liderlərini proqram fəaliyyətinə qoşmağa qərar verilmişdir.

Eyni zamanda, onu da bildirim ki, bu proqram ABŞ-ın qanunvericilik hakimiyyətinin yeganə mübadilə proqramıdır və onun illik maliyyəsi Konqres tərəfindən ödənilir. Bu proqramda iştirak etmək həm namizəd, həm də iştirakçılar üçün pulsuzdur. “Açıq Dünya Proqramı” Konqres kitabxanasında yerləşən və bu ölkənin qanunvericilik hakimiyyətinin agentliyi olan Açıq Dünya Liderlik Mərkəzi (ADLM) tərəfindən idarə olunur. Doktor Ceyms H. Billinqton Mərkəzi idarə edən Himayəçilər Şurasının (Board of Trustees) sədridir. Açıq Dünya Mərkəzinin ofislləri Vaşinqtondakı Konqres Kitabxanasında və Moskvadakı ABŞ səfirliyində yerləşirlər. Beynəlxalq Təhsil üzrə Amerika Şurası (American Councils for İnternational Education) ictimai təşkilat olaraq “Açıq Dünya Proqramı”nın inzibati idarəçilik və maddi-texniki təchizat xidmətlərini müqavilə əsasında həyata keçirir. “Açıq Dünya Proqramı” bütün dövlət strukturlarında çalışan məmurların, təhsil işçilərinin, iş adamlarının və ictimai xadimlərin iştirakını nəzərdə tutur. Bir məqamı xüsusi qeyd etmək istəyirəm ki, həm Amerika təcrübəsini öyrənməyə açıq, həm də geri döndükdən sonra öz amerikalı həmkarları ilə işgüzar və şəxsi əlaqələri davam etdirə bilən, nisbətən gənc, lakin artıq öz peşəkarlıq və liderlik bacarığını nümayiş etdirmiş istedadlı insanlar bu proqramın ən münasib namizədləri hesab olunurlar.

Qeyd etdiklərimlə yanaşı, bu proqram vasitəsilə hər bir iştirakçı peşəkar proqramlaşdırma, amerikalı həmkarları ilə təcrübə mübadiləsi və əlaqələrin inkişafı, mədəni, sosial və əyləncə, amerika ailə həyatı təcrübəsi, Moskvada və Vaşinqtonda oteldə yerləşmə, qəbul edən icmada ailə qonağı olmaq, işgüzar fəaliyyət vaxtı tərcümə xidməti, beynəlxalq uçuşlar zamanı Bakı və digər səfər etdiyiniz şəhərdə və ABŞ-da olan dövrdə yeməklə təminat imkanını əldə edir. Həmçinin proqram iştirakçısının yaşadığı şəhərdən səfər etdiyiniz şəhərə və əks istiqamətə səyahət etmək, müvafiq beynəlxalq və yerli uçuş xərcləri, ABŞ ərazisində və digər qəbul edən ölkələrin ərazisində proqramla əlaqədar təşkil olunan bütün səfərlərdə iştirak etmək imkanları olur.

Səfərimizin neçə gün davam etdiyinə gəldikdə isə, onu bildirim ki, səfər oktyabrın 29-dan noyabrın 11-ə kimi davam etdi. Yola düşməzdən əvvəl “Abşeron” mehmanxanasında yolasalınma mərasimi keçirildi. Həmin mərasimdə “Açıq Dünya Proqramı”nın məsul şəxsləri, ABŞ-ın Azərbaycandakı səfirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin məsul işçisi Dmitri Taraxovski, həmçinin Fasilitatorların Koordinatoru, Amerika Şurasının Moskva Ofisinin nümayəndəsi İrina Novikova, Amerika Şurasının Bakı Ofisinin direktoru Emi Pitersen və Proqramlar üzrə Koordinator, Amerika Şurasının Bakı Ofisinin nümayəndəsi Qalib Abbaszadə iştirak edirdilər. Cənab Dmitri Taraxovski proqram iştirakçılarını xanım Enn Dersinin adından təbrik etdi və onlara uğurlar arzuladı.

Məlumat üçün onu da qeyd edim ki, bizim nümayəndə heyətimiz 5 qrupdan ibarət idi. Hüquqşünaslardan ibarət qrup hakimlərdən təşkil olunmuşdu. Onlar Amerikanın məhkəmə təcrübəsi ilə tanış olmaq üçün bu ölkəyə səfər edirdilər. İkinci qrup bələdiyyə üzvlərindən ibarət idi. Üçüncü qrupda mətbuat nümayəndələri təmsil olunurdu. Dördüncü qrup gənclərdən, beşinci qrup isə əlillərdən ibarət idi. Hər qrupda 4 nəfər var idi.Əlillər qrupunda təmsil olunan 4 nəfərdən 2-nin hərəkəti məhdud olduğu üçün onlar əlil arabası ilə hərəkət edirdilər. 1 nəfər anadangəlmə əlil idi. Biz əvvəlcə 2 gün ABŞ-ın paytaxtı Vaşinqtonda qaldıq. Ümumiyyətlə, ABŞ-da digər sahələrdə olduğu kimi, qonaq qarşılama mədəniyyəti də çox yüksəkdir. Bu ölkənin iqlim şəraiti, ab-havası mənim çox xoşuma gəldi. Vaşinqtonda qaldığımız oteldə bizə yüksək səviyyədə xidmət göstərildi. Bütövlükdə isə ABŞ-da olduğumuz müddətdə biz hər yerdə çox mehriban, qayğıkeş və isti münasibətlə əhatə olunmuşduq. Bir sözlə, ABŞ-da hər şey ürəkaçan, qəlboxşayan idi.

Diqqətinizə bir məlumatı da çatdırım ki, vaxt ölçüsü baxımından Azərbaycanla ABŞ arasında 9 saat vaxt fərqi var. Ertəsi gün səhər yeməyindən sonra bizi şəhərlə tanış etməyə apardılar. ABŞ-ın siyasi, inzibati və mədəniyyət mərkəzi olan Vaşinqton heyrətamiz gözəlliyə malik olmaqla yanaşı, ekoloji cəhətdən təmiz bir şəhərdir. ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun adını daşıyan bu şəhər qeyri-adi planlı küçələri, əsrarəngiz mənzərələri, geniş prospektləri ilə insanı heyran edir. Konqresmenlərin idarələri Kapitoliyanı əhatə edən binalarda yerləşir. Yaxınlıqda isə Ali Məhkəmə və Konqres Kitabxanasının korpusu yerləşir. Vaşinqtondakı Milli Xiyabanın mərkəzində Corc Vaşinqtonun sütun daş abidəsi durur. Pensilvaniya ştatında, Milli Xiyabanın şimal tərəfində Corc Vaşinqtonun heykəli ilə üzbəüz ABŞ prezidentinin iqamətgahı-Ağ Ev yerləşir.

Vaşinqtondakı gəzinti zamanı biz Konqres Kitabxanasında, Kapitoliyada, Ali Məhkəmədə, Ağ Evdə olduq, Tomas Cefersonun, Vaşinqtonun, Linkolnun abidələrini, Koreya müharibəsi veteranlarının abidəsini, İkinci Dünya Müharibəsi iştirakçılarının xatirəsinə qoyulmuş Milli Abidəni, Franklin D. Ruzveltin abidəsini və Arinqton məzarlığını ziyarət etdik. Biz, həmçinin, Milli İncəsənət Qalereyasında, Amerika Tarixi Milli Muzeyində, Təbii Tarix Milli Muzeyində, Smitsonov İnstitutunda, Kosmonavtika və Təyyarəçilik Milli Muzeyində və Xirşxorn Muzeyi və Heykəltaraşlıq Bağında olduq. Gəzinti zamanı bizə ABŞ-ın tarixi, ictimai-siyasi quruluşu, dövlət strukturları, qanunvericiliyi, tarixi abidələri və s. barədə ətraflı məlumat verildi. Biz Konqres Kitabxanasında Açıq Dünya Liderliyi Mərkəzinin Baş direktoru səfir cənab Con Okiflə, Açıq Dünya Liderliyi Mərkəzinin Proqram başçısı cənab Luis Madaniklə, Amerika Şuralarının məsləhətçisi cənab Karl Herrinlə, İFES-in Orta Asiya və Qafqaz üzrə Proqramlar başçısı Entoni Bouyerlə, Azərbaycan üzrə Proqram məmuru xanım Maya Serbanla, ABŞ Ədliyyə Nazirliyinin Xarici Prokurorluq İnkişafı, Yardımı və Təlimi İdarəsinin (OPDAT) Regional Direktoru cənab Ceyms Silvervud və onun müavini xanım Fey Erenstammla görüşlər keçirdik. Eləcə də Xarici Prokurorluq İnkişafı, Yardımı və Təlimi İdarəsi Ədliyyə Nazirliyinin Cinayət Şöbəsində proqramın əlaqələndiricisi və təhlilçisi cənab Qrant Aleksislə, Protokol və Beynəlxalq Məsələlər Kolambiya Dairəsi Katibi İdarəsində CapStatın direktoru cənab Kevin Donohyu, onun əlaqələndiricisi xanım Patrişa Elvud, habelə ABŞ Konqresinin Kitabxanasında bu ölkənin məşhur lobbiçi təşkilatlarının nümayəndələri ilə də görüşlər keçirdik. Xüsusilə də Herrin Associates Şirkətinin Hökumətlə Münasibətlər üzrə məsləhətçisi cənab Karl Herrinlə keçirdiyimiz görüş bizdə böyük təəssürat yaratdı. Belə ki, o, bizə ABŞ-da vətəndaş cəmiyyəti, Amerika siyasətinin tarixi əsasları, yazılı qaydaların hüquqi və mədəni əhəmiyyəti, qaydaların yazılı izahı, bu fövqəldövlətin hökumət strukturları, ölkə ictimaiyyətinin hökumətə çıxışı, ABŞ-ın seçki qanunvericiliyi və seçki prosesi barədə hərtərəfli məlumat verdi.

Vaşinqtondan sonra biz Nyu-Yorkdan 5 saatlıq məsafədə yerləşən Sirakus şəhərində olduq və bir çox əlil təşkilatlarının nümayəndələri ilə görüşlər keçirdik. Sirakusdan məşhur Niaqara şəlaləsinə 1 saatlıq yoldur. Sirakusda bizim nümayəndə heyətini Beynəlxalq Mərkəzin icraçı direktoru, əslən İtaliyanın Siciliya vilayətindən olan, nəcib və xeyirxah bir insan olan xanım Rut Raqoniz müşaiyət edirdi.

Sirakusda ilk öncə bizim gəlişimiz münasibətilə Borio restoranında mərasim keçirildi. Sirakusda biz Seçkilər Heyətinin komissarı cənab Edvard F. Rayanla görüşdük. Cənab Rayan bizə seçkilər prosesi, seçkilər heyətinin cavabdehlikləri, seçici olmaq üçün qoyulan şərtlər və qeydiyyat prosesi barədə ətraflı məlumat verdi. ABŞ-da səfərdə olmağımız bizə bu ölkənin seçki prosesini müşahidəçi kimi izləmək imkanı verdi. Qeyd edim ki, Amerikada dövlət səviyyəsində seçkilərin azad, ədalətli və demokratik şəraitdə keçməsi üçün ideal şərait yaradılır. Eyni zamanda, ABŞ-da vətəndaşların siyasi fəallığı çox yüksəkdir və onlar bütün seçkilərdə fəal iştirak edirlər. Xüsusilə də gənclər seçkilərə böyük həvəslə gedirlər və onları seçki məntəqələrində böyük qayğı və diqqətlə qarşılayırlar. ABŞ-da hər bir vətəndaşın səsi seçkidə mühüm rol oynayır. ABŞ vətəndaşları seçkiləri onların həyatına çox böyük təsir göstərə bilən mühüm siyasi hadisə kimi qiymətləndirir və buna görə də seçkilərdə fəal iştirak edirlər.

2008-ci ilin 4 noyabrında biz bunun canlı şahidi olduq. Həmin gün ABŞ vətəndaşları seçki məntəqələrinə gələrək öz namizədlərinə sərbəst şəkildə səs verdilər. ABŞ-da əlillərin səs vermələri üçün xüsusi elektron qutulardan istifadə edilir. Məqamı ikən, onu da qeyd edim ki, 50 ildən çoxdur ki, Sirakus şəhərində yerləşən Pompoy kilsəsi tərəfindən bu kilsənin üzvləri öz məktəblərinin vəsaitini artırmaq məqsədilə seçki günü rəsmi səhər yeməyi təşkil edir. Bu bir növ nahar fasiləsində görüşmək üçün seçkilərlə bağlı çalışan məmurların və namizədlərin “görüş yeri”dir. Bu “görüş”də yerli kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak edirlər. Amerika bir növ nağıllar və möcüzələr aləmidir. Mən Amerikanı ideallaşdırmaq fikrində deyiləm, sadəcə, səfər zamanı gördüklərimi, müşahidə etdikərimi oxucuların diqqətinə çatdırıram.

ABŞ-ın inzibati quruluşu və iqtisadi sistemi ilə bağlı onu deyə bilərəm ki, bu ölkədə hər bir ştat müstəqil fəaliyyət göstərir və hər birinin öz qanunvericiliyi var. Mən olduğum şəhərlərdə sənaye müəssisələri ilə rastlaşmadım. Aldığım məlumatlarda fabrik və zavodların Çində və Vyetnamda fəaliyyət göstərdikləri bildirildi. Bu da həmin ölkələrdə işçi qüvvəsinin çox olması ilə izah edilir. ABŞ-ın nümayəndələri sözügüdən ölkələrdə həmin müəssisələri idarə edirlər. İstehsal edilən məhsullar ABŞ-a və eləcə də xarici ölkələrə aparılır. Yadınıza klassik bir ifadəni salmaq istəyirəm: xalq dövlət üçün deyil, dövlət xalq üçündür! Bu baxımdan ABŞ dövlətinin təcrübəsi çox dəyərli bir nümunə, layiqli örnəkdir. Vətəndaş da dövlətini çox sevir və ona vicdanla, ləyaqətlə xidmət edir.

Diqqətinizə bir məlumatı da çatdırım ki, Amerikada dövlət məmurları ayda 2 dəfə kilsələrə gedir və kilsədə təşkil edilmiş nahar yeməyində iştirak edirlər. Bu, bir növ dövlət nümayəndələrinin sadə vətəndaşlarla canlı ünsiyyət formasıdır. Nahar bitdikdən sonra onlar xalqlarının əmin-amanlığı, təhlükəsizliyi və firavanlığı üçün birlikdə dua edirlər. Mən də Senatın və Konqresin üzvləri ilə həmin nahar mərasimlərinin birində iştirak etdim. Həmçinin ATƏT-in Qafqaz üzrə Nümayəndəliyinin rəhbəri ilə də görüşdük.

-Tahir müəllim, əlil təşkilatları ilə keçirdiyiniz görüşlər barədə oxucularımıza geniş məlumat verməyinizi istərdik.

-Məmnuniyyətlə. Elə mən də qəzetimiz vasitəsilə Sirakus şəhərində görüşdüyümüz əlil təşkilatları barədə oxuculara ətraflı məlumat verməyi məqsədəuyğun sayıram. İlk öncə onu bildirim ki, ABŞ-da dövlətin sosial müdafiə siyasətində əlillərə qayğı və diqqət, onların reabilitasiyası və həyata inteqrasiyası ilə bağlı məsələlər xüsusi yer tutur. Yeri gəlmişkən, onu da qeyd edim ki, Nyu-Yorkun yeni qubernatoru David Patterson da iki gözdən əlildir.

Qeyd edim ki, bu ABŞ-ın tarixində ikinci hadisədir ki, gözdən əlil şəxs qubernator seçilir. Tam əsasla deyə bilərəm ki, Amerikada əlil insanlara dövlət tərəfindən və xeyriyyəçi iş adamları tərəfindən çox böyük qayğı və diqqət göstərilir, onların qarşıya çıxan bütün problemləri dərhal öz müsbət həllini tapır.

Sirakusda çoxsaylı əlil təşkilatları fəaliyyət göstərir ki, onlardan biri də Mərkəzi Nyu-York şəhərində yerləşən “ENABLE” təşkilatıdır. Bu təşkilat öz xidmətləri vasitəsilə inkişafdan qalan və ya fiziki əlilliyi olan insanların həyat standartlarını yüksəldir. Təşkilatın fəaliyyətinin başlıca prinsiplərinə seçim, daxiletmə, səlahiyyətlərin verilməsi və ailəyə cəlb etmək daxildir.

Sirakusda əlillərin başqa bir qurumu “Onondaqa İcma Kolleci”dir (OİK). Bu kollec Nyu-York Dövlət Universitetinin kolleci olub, Nyu-York Ştatında icma kolleclərinin üçdə birini təşkil edir. Adıçəkilən kollecdə ikillik proqram tələbələrə 4 illik instituta daxil olmağa və təhsilini bitirdikdən sonra işləməyə imkan verir. Kollecin əlillərlə bağlı məsələlər üzrə direktoru cənab Bellen bizə OİK -in əlil şəxsləri necə məskunlaşdırdığı barədə müfəssəl məlumat verdi.

Ononqada əyalətində əlillərlə bağlı digər bir qurum “Müvəqqəti Həyat Xidmətləri”dir (MHX). “Müvəqqəti Həyat Xidmətləri” əlillərə özlərində tam potensialı kəşf etmələrinə, dəyərli və fəal icma üzvləri kimi yaşayıb, işləmələrinə yardım edir. Bu məqsədlə MHX icmada, əsasən də Nondaqa əyalətində yaşayan əlillərin evlərində yaşayışla bağlı yardımçı xidmətlər təklif edir. Yardımçı xidmətlər, həmçinin, ailələrə də təklif olunur. Biz MHX-də olarkən buranın agentlik və xidmətləri ilə tanış olduq. Sirakusun mərkəzində MHX-nin peşə təhsili proqramının bir hissəsi olan və çörəkçi-restoran kimi fəaliyyət göstərən təchizat bölməsi var. Təchizat proqramı fəal və uğurlu biznes mühitində iş sərişdəsi qazanmaq imkanı verir. Həftədə 10-18 sat arası davam edən işə görə təlimçilərə minimum əmək haqqı ödənilir. Burada təcrübə qazandıqdan sonra şəxsin tərcümeyi-halı hazırlanır və ona növbəti işin tapılmasında köməklik göstərilir. MHX-da olarkən biz bu qurumun ölkə üzrə müşaviri və İCS Heyətinin üzvü xanım Şeyla Sileylə tanış olduq. Onu da bildirim ki, Ənənəvi Həyat Xidmətləri əlillər üçün müxtəlif çeşidli proqramlar təklif edir. Həmçinin buraya yaşayışla təminetmə, icma, ailə və peşə xidmətləri daxildir. Biz işçilərin hər bir fərd üçün xüsuisi hazırlanmış xidmət planı əsasında 24 saat xidmət göstərdiyi özəl mənzillərə gedib, oranın sakinləri ilə görüşdük. Məlumat üçün onu da qeyd edim ki, bu Qurumun əsası 1974-ci ildə Onondaqada qoyulmuşdur. Qurum əlillərin ehtiyaclarının ödənilməsinə və onların tələblərinin yerinə yetirilməsinə xidmət edir. “Müvəqqəti Həyat Xidmətləri” qurumu beyin zədəsi alan təxminən 2000 xəstəyə yaxından köməklik göstərmişdir.Direktoru Aylin Jakovskidir.

Əlillərin digər bir qurumu olan Kooperativ Təhsil Xidmətləri Heyəti Mərkəzi (BOCES) Nyu-Yorkun üç əyalətində bütün rayonların məktəbləri ilə işləyir. BOCES yeniyetmələrdən başqa, əlil uşaqların təhsil sahəsindəki ehtiyaclarının ödənilməsinə köməklik göstərir. Eyni zamanda, BOCES kulinariya sahəsində də proqram həyata keçirir.

Burada əlillər müxtəlif treninqlərin təşkili ilə bağlı lazım olan köməkliyi tapa bilərlər.Ümumiyyətlə, bu, əlil insanların boş vaxtının təşkili, yeni cari iş həyatının təşkili və hər bir insanın maraq dairəsinə uyğun işin təşkili üçün bir qurumdur. Bu məktəb xüsusi olaraq fiziki çatışmazlığı olan insanlar üçün təşkil edilmişdir. Məktəbdə əlillərə düzgün təhsil verilməsi ilə yanaşı, onların fiziki tərbiyə dərslərinə də xüsusi diqqət yetirilir. Burada əlil insanların bir çox sahələr üzrə, o cümlədən sənətkarlıq da daxil olmaqla digər sahələrdə ixtisaslaşdırılması üçün əsas kurslar fəaliyyət göstərir. Bu Xüsusi Təhsil Mərkəzinin direktoru cənab Gefri B.Vilsondur.

Əlillərlə bağlı digər bir qurum Əsas Küçə Məktəbidir. Təcrübəli insanların xüsusi ehtiyacı olan tələbələrə terapiya xidmətləri göstərdiyi inkuliziv mərkəzlərdə məktəbəqədər yaşda olan əlil və qeyri-əlil uşaqlar işləyir və oynayırlar. Müəllimlər, onların köməkçiləri və terapevtlər bütün tələbələrə Nyu-York dövlət standartlarına uyğun xüsusi tədris proqramı keçirlər. Bu məktəbin direktoru isə Ketlin Espositodur.

Qeyd etdiklərimlə yanaşı, Sirakusda digər bir əlil təşkilatı da var ki, bu təşkilat “ARİSE” adlanır. Mərkəz 1979- cu ildə yaradılmışdır. Mərkəz əlil qurumlarının fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə yaradılmışdır. Direktoru Takida Bekvit olan bu təşkilatın əsas missiyası hər bir kəsin tam iştirak edə biləcəyi ədalətli icmanın qurulması üçün istənilən qabiliyyətə malik insanlarla işləməkdir. Təşkilat müstəqil həyatın əsas prinsipləri sayılan əlil şəxslərin ləyaqəti, şəxsi cavabdehlikləri və müstəqilliklərə prinsiplərinə riayət edir. “ARİSE” əliliyi olan şəxslərə bütün yaşlarda vəkillik və yardımçı xidmətlərinin göstərilməsini təkif edir. Bu qurumun at və digər heyvanlar saxlayan və 76 akrlıq bir ərazidə yerləşən ferması da var.

Mərkəzə imkanlı şəxslər tərəfindən yatırılan maliyyə vəsaiti əlillərə sərf edilir. Mərkəz əlillərə köməklik göstərilməsini öz insani borcu hesab edərək onların hüquqlarının qorunması üçün hərtərəfli fəaliyyət göstərir. “ARİSE”, həmçinin, əlil insanların bacarıqlarının üzə çıxarılmasına və istedadlarının inkişafına yaxından köməklik göstərir. Mərkəz həm də bir çox proqramlar həyata keçirməklə bərabər, “Kainat” incəsənət və ədəbiyyat jurnalını dərc etdirir.

Biz “ARİSE”də olarkən keçirilən görüşü Tom MacKevin açaraq bizi salamladı. Tədbirdə Takida Bekvit, Nina Lutz, Juli Viler, Karen Santi, Rudi Fridberq, Lori Mori, Dan Olivadoti, Cerimi Fiş, Toni MakEnari, Lori Nevkomb, Beta Karpinska-Pren, Melissa Jones və başqaları şıxış etdilər. Biz eləcə də Cenifer Şulz və Laura Litllə görüşdük.

Sirakusda əlillərin başqa bir qurumu “Enable” Uşaqlar və yetkin əlillər üçün şəxsi xidmətlər Mərkəzidir. Mərkəzin icraçı direktoru xanım Sara Val-Bollinger, koordinatoru Deb Oonk, vəkil koordinatoru isə Salli Constondur.

(davamı səh. 3-də)